# İstedadlı jurnalist, vətənpərvər şair



**Gecə ilmə-ilmə sökülür, nurlu bir səhər açılır. Yeni bir gün başlayır, yeni bir ümid, təzə bir arzu baş qaldırır. İnsanın qəlbində, ürəyində işığa bələnmiş sözü ilə taxt qurmaq bacarığını uca Tanrı hər yoldan ötənə, hər bəndəsinə rəva görmür. O sehri, o duyğunu bütün ömrü boyu həyatının mənasına çevirmiş qələm dostum, şair Tofiq Hüseyn haqqında düşüncələrim elə həmin o nikbinlikdən, təzə-tər bir ruhdan başlayır. Bu ala-bəzək dünyanın ucqar bir bucağından, balaca bir kənddən başlanan yol onun taleyinə, qismətinə iynənin ucu boyda bir işıq salıb, təzadların şimşək kimi cövlan etdiyi zəmanə onun sözə etibarına, ehtiramına, sözə vurğunluğuna, hər kəlməsinin sanbalına, çəkisinə təsir edə bilməyib. Mənim düşüncəmə görə, ilahi sözün qarşısında dayana bilmək hər kişiyə nəsib olmur. Bu ancaq uca yaradan tərəfindən seçilmişlərə nəsib olur.**

Şair dostumun yaradıcılığı ilə yaxından tanış olduqdan sonra belə bir qənaətə gəldim ki, on illər bundan əvvəl yazdığı şeirlərdə də, son vaxtlar qələmə aldığı poeziya parçalarında da çox xoş bir ovqat var. Onun səmimi və ürəyəyatan şeirləri insanda yaşayıb-yaratmaq eşqi, həyatsevərlik təlqin edir.

Mənim tanıdığım Tofiq Hüseyn çox istedadlı şair, gözəl publisist, peşəkar bir jurnalist, sadə bir insandır. Təxminən 20 ildən artıqdır ki, bir kollektivdə, "Respublika" qəzetində çalışırıq. Bu illər ərzində çox dərindən duymuşam ki, Tofiq müəllim həmişə haqqın, ədalətin yanında olub, asta, təmkinli danışığı ilə buz bağlamış münasibətlərin üstünə nur çiləyib. Halbuki, onun özü lap cavan yaşlarından haqsızlıqla üzləşib.

*Ömrüm yelkənini sahilə çəkir,*
*Qazandığım nədir, itirdiyim nə.*
*İlahi, bir kimsə inanmadı ki,*
*Şair doğulmuşdum doğulanda mən.*

Ötən əsrin 60-70-ci illərində onun öz oxucuları olub, bu gün də var, onu bir şair kimi seviblər, ona mənəvi dayaq olublar.

Şair dostumun "Anama" şeirini bir neçə dəfə oxudum, kövrəldim və duydum ki, ana haqqında yazılmış bütün şeirlərdən güclüdür, bu şeir ana haqqında bir övladın elegiyasıdır.

*Sənsiz keçinmişəm uşaqlıq çağı,*
*Bayatı oxuyub kamanım, tarım.*
*Sənə yuxusuzluq borcluyam axı,*
*Bəs sənin borcunu kimə qaytarım?*

Ata-ana həsrəti onun üz-gözündə, sözündə yuva qurub. Lap cavan yaşında Şirvan düzündə bir ev tikib, isti bir yuva qurub. Tikdirdiyi həmin evi övladları üçün bir avtoqraf kimi nəzərdə tutub. Vaxtilə kitab çapı üçün çalışıb vuruşanda bir həqiqəti anlayıb ki, kitablara yazılan avtoqrafları zaman poza bilir, yurd, binə avtoqrafına Tanrıdan başqa heç kəsin gücü çata bilməz.

Gündüzlər həmin evin divarlarının hörgüsünə kömək edən Tofiq Hüseyn gecələr sözdən neçə-neçə bənd qurub, sözdən saray tikib, misraları qəlb dünyasının pillələri olub.

Tofiq müəllimin yaradıcılığı çoxşaxəlidir. Şeir, nəsr, publisistika. Üçü də onun qələmində dolğun, fərqli, düşündürücüdür. Lap cavan yaşlarından qəzetçiliklə məşğul olub, Şirvan şəhərində, sonra Hacıqabulda dünyanın ən əzablı və həm də ən çətin işi ilə, jurnalistika sahəsində, sözün əsl mənasında külüng çalıb. Redaktor kimi neçə gəncin yoluna işıq salıb, daha doğrusu, əyalətdə bir jurnalistika məktəbi qurub. Ustad dərsləri keçib, sözə heç vaxt xəyanət etməyib.

Sonra ölkə mətbuatında böyüklü-balacalı yüzlərlə məqaləsi, oçerki, zarisovkası, publisist yazıları çap olunub. Tofiq müəllim öz imzasına hörmət qoyan, sayılıb-seçilən jurnalistdir.

Qəzetimizin Baş redaktoru, professor Teymur Əhmədovla işləmək asan olduğu qədər həm də məsuliyyətlidir. Onu razı sala biləcək yazılar yazmaq həmin qəzetdə çox az adama müyəssər olub. Tofiq müəllim öz yazıları ilə oxucuların rəğbətini qazanıb.

Tofiq Hüseyn öz məqalələrində həmişə birmənalı olaraq dövlətçilik mövqeyindən çıxış edib, sözünü cəsarətlə deyə bilib. Səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalına layiq görülüb, respublikanın əməkdar jurnalistidir. 2011-ci ildə seçilmiş əsərlərinin 2 cildliyi nəşr olunub. Bu gün də gənclik eşqi ilə yazıb-yaradır.

Tofiq müəllim gözəl ailə başçısıdır, nəvə sevinci yaşayır, evinin, ailəsinin xanımı ilə övladlarının başına pərvanə kimi dolanır. Bu dəyərli insan Şirvan torpağında çox böyük hörmət, izzət qazanıb, bir evin, bir elin ağsaqqalı, güman yeridir.

Yeri gəlmişkən, ötən il avtomobil qəzasına düşmüşdüm. Ağır vəziyyətdə Bərdə Mərkəzi Xəstəxanasında müalicə olunurdum. Bunu eşidən Tofiq müəllim, demək olar ki, hər gün mənə telefon edir, səhhətimlə maraqlanır, pula, paraya ehtiyac olub-olmadığını soruşurdu. Bu mənəvi dayaq onun böyüklüyündən, onun insanlığından xəbər verdi. Nə deyim, əziz dost, həmişə ümid yeri ol, həmişə arxasıza dayaq ol, heç zaman söz sarayının nuru əskilməsin.

Acılı-şirinli bir ömür sahibisən, 70 yaşın mübarək olsun! Çox yəqin ki, bu yaş müdrikliyin, mənəviyyatın zirvəsidir. Bu zirvəni fəth etdiyin üçün, bu zirvədən qürurla baxdığın üçün sənin sevincinə heç nə çata bilməz. Sevincin mübarək olsun, Tofiq müəllim!

**Salman ALIOĞLU.**